“Azərinşaatservis” MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
**Tel.:** (+994 12) 447 70 03 (04) **Faks:** (+994 12) 565 04 54
www.azerinsaat.com

**PRES RELİZ**

# “Azərinşaatservis” MMC tərəfindən inşa edilən Masazır yol ötürücüsü istifadəyə verildi.

*“Azərinşaatservis” MMC*
*Bakı, Azərbaycan*
*2009/07/23*

“Azərinşaatservis” MMC-nin “Bakı-Quba-Rusya Federasiyası dövlət sərhədi avtomobil yolunun km 6-16 hissəsinin yenidənqurulması” layihəsi çərçivəsində inşa etdiyi Masazır yol ötürücüsü istifadəyə verildi.

Ümumiyyətlə “Bakı-Quba-Rusya Federasiyası dövlət sərhədi avtomobil yolunun km 6-16 hissəsinin yenidənqurulması” layihəsinə 3 ədəd yol ötürücüsünün rehabilitasyası və bir yeni Masazır yol ötürücüsünün tikintisi daxildir.

Masazır yol ötürücüsü Xırdalandan və Masazırdan gələn avtomobil yollarının Bakı-Rusiya Federasyası dövlət sərhədi avtomobil yoluna birləşdirilməsini təmin etmək məqsədi ilə inşa edilib. Burada belə bir yol ötürücüsünün istifadəyə verilməsi həmin ərazidə yaranan tıxacın qarşısının alınması və hərəkətin rahatlığının təmin edilməsi baxımından da böyük əhəmiyyətə malikdir.

Bakı-Quba-Rusya Federasiyası dövlət sərhədi avtomobil yolunun 12-ci kilometrində inşa edilən Masazır yol ötürücüsünün uzunluğu 84 m (hər 2 qoldakı birləşmə plitələri ilə birlikdə 99 m), eni isə 24,5 m-dir. 3 gediş, 3 gəliş olmaqla 6 hərəkət zolağından ibarət olan körpünün hər iki kənarı boyunca piyadaların hərəkəti üçün 1,5 m enində səki də hazırlanıb. Hərəkət zolaqlarının hər birinin eni isə 3,75 m-dir. Yerdən hündürlüyü 9 m olan bu yol ötürücüsünün hazırlanmasında yüksək tazyiqə dözümlü tirlərdən istifadə edilib.Yol ötürücüsünün tikintisi zamanı 47 000 $m^3$ torpaq işləri görülmüş, 4 773 $m^3$ beton və 12 540 ton asfaltdan istifadə edilmişdir. Ümumiyyətlə bu yol ötürücüsünə birinci qatı 12 sm, ikinci qatı 10 sm və aşınma qatı 5 sm olmaqla cəmi 27 sm qalınlığında asfalt örtük çəkilib.

“Azərinşaatservis” MMC-nin həyata keçirdiyi “Bakı-Quba-Rusya Federasiyası dövlət sərhədi avtomobil yolunun km 6-16 hissəsinin yenidənqurulması” layihəsini Çexiya İxrac Bankı maliyyələşdirir. Layihənin sifarişçisi Azərbaycan Respublikası Nəqliyyat Nazirliyidir. Hazırda layihə çərçivəsində nəzərdə tutulan işlərin təxminən 80 %-ə qədər hissəsi başa çatdırılıb. İcrasına 2006-cı ilin dekabr ayından başlanan bu layihənin Azərinşaatservis MMC tərəfindən bu ilin oktyabr ayında istifadəyə tam hazır şəkildə təhvil verilməsi nəzərdə tutulub.

*2003-cü ildə qurulan “Azərinşaatservis” MMC Azərbaycanda və Qafqaz regionunda yol və dəmiryolu tikintisi sahəsində aparıcı şirkətlərdən biridir. Yüksək keyfiyyətli xidmətlər göstərən Şirkət, əsas fəaliyyət dairəsi olan avtomobil və dəmiryolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 208 20 87, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**